# Milli həmrəyliyin təntənəsi



***Vətən müharibəsində Azərbaycanın əldə etdiyi parlaq qələbədən sonra Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü fərqli şəkildə, daha yüksək əhvali-ruhiyyə ilə qarşılanır. Çünki bu əlamətdar bayramın özündə daşıdığı milli həmrəylik anlayışı İkinci Qarabağ savaşında möhtəşəm zəfərimizi şərtləndirdi, xalqımızı bir yumruq kimi Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında birləşdirdi və uzun illər ürəklərdə kök salan yurd nisgilinə son qoydu, doğma ocaqlarından 30 il ərzində didərgin salınan məcburi köçkünləri Vətən istəyinə qovuşdirdu.***

Yeri gəlmişkən, Azərbaycanda, eləcə də respublikamızdan kənarda yaşayan soydaşlarımız arasında milli həmrəyliyin, təəssübkeşliyin möhkəmlənməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin ikinci dəfə hakimiyyətə gəlişi ərəfəsində ölkəmizdə acınacaqlı şərait hökm sürürdü. Ötən əsrin 90-cı illərinin əvvəllərində respublikada yaşanan xaos, qarışıqlıq nəticəsində ölkə vətəndaş qarşıdurması ilə üzləşmişdi. Cəmiyyətdə qütbləşmə dəhşətli dərəcədə dərinləşmiş və separatizm meyilləri baş qaldırmışdı. Ermənistanın işğalçılığına qarşı aparılan müharibədə ön xətt mövqelərimiz müdafiəsiz qalmışdı. Ulu öndərin xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə gəlişi Azərbaycanda davamlı sabitliyin və iqtisadi tərəqqinin əsası qoyuldu, milli birliyə nail olundu, azərbaycançılıq anlayışı milli təfəkkür tərzinə çevrildi.

Bütün bunlarla bərabər, dahi öndərimizin rəhbərlik etdiyi müstəqil Azərbaycan ayrı-ayrı ölkələrdə məskunlaşan soydaşlarımızın milli iftixar, mənəvi dayaq və güvənc yerinə çevrildi. Ümummilli lider Heydər Əliyev təkcə respublikamızda deyil, eyni zamanda, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar arasında milli həmrəyliyin yaranmasını, möhkəmlənlənməsini qarşıya prioritet vəzifə kimi qoydu və qısa müddətdə bu önəmli məqsədə nail oldu.

Onu da qeyd edim ki, dahi şəxsiyyət bu zəruri, taleyüklü məsələnin gerçəkləşməsinə hələ Naxçıvanda olarkən başlamışdı. Onun təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" qərar qəbul edərək, dekabr ayının 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi.

Bu qərar müstəqilliyini yeni elan etmiş Azərbaycanda milli həmrəylik ideyasının möhkəmlənməsinə əvəzsiz töhfə idi. Birlik və həmrəylik istiqamətində atılmış bu addım sonrakı dövrlərdə xalqımızın vahid ideologiya ətrafında birləşməsində mühüm rol oynadı. 1993-cü ildə xalqın istəyi ilə Heydər Əliyevin respublikamıza rəhbərliyə başlamasından sonra Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü daha geniş vüsət taparaq ürəklərdə vətən eşqi, milli və mənəvi birlik hissləri bəsləyən hər bir soydaşımız tərəfindən güclü dəstək aldı.

Ulu öndərin milli həmrəylik və azərbaycançılıq amalının şüurlarda möhkəm yer tutmasına yönələn uzaqgörən siyasəti ötən 18 ildə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Bu, Vətən müharibəsində işğalçılar üzərində möhtəşəm zəfərimizi gerçəkləşdirdi. Dövlətimizin başçısı savaşdan sonra çıxışlarının birində bu barədə dedi: "Biz döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda gücümüzü, müstəqilliyimizi göstərdik. Bu müharibədə biz nə qədər böyük sınaqlardan çıxdıq, nə qədər böyük təzyiqlərə məruz qaldıq. Amma haqq yolundan dönmədik, daim irəliyə getdik, qələbəyə doğru inamla addımladıq. Çünki mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi. Çünki bilirdim ki, biz haqlıyıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz torpaqlarımızı qaytarırıq".

İkinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar da tarixdə görünməmiş dərəcədə fəallıq göstərdilər, daha sıx birləşdilər. Yaşadıqları ölkələrdə Azərbaycanın haqq səsinin eşidilməsi üçün səylərini əsirgəmədilər. Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri qələbəmizə layiqli töhfə oldu.

***Emin BAĞIROV,***
***AMEA Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru***

Xalq qəzeti .- 2021.- 30 dekabr.- S.7.